PULSUZ

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!



2023–016

AZƏRBAYCAN DİLİ 3 DƏRSLİK 1-ci hissə

# AZƏRBAYCAN DİLİ

## DƏRSLİK

## 3

I HİSSƏ



 

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

*Musiqisi* ***Üzeyir Hacıbəylinin,***
*sözləri* ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Aygün Qasımova, Farizə Nəbiyeva,
Yeganə Məmmədəliyeva, Həbib Kərimov,
Könül Doxolova, Süleyman Kərimov

Xüsusi məktəblərin

3-cü sinifləri üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış

# Azərbaycan dili

fənni üzrə

## DƏRSLİK

**I hissə**

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
*chashioglu@gmail.com* və *derslik@edu.gov.az*
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# MÜNDƏRİCAT

## I fəsil

Aa, Nn hərfləri ........ 6
Əə, Tt hərfləri ........ 7
Ll, Mm hərfləri ........ 8
İi, Bb hərfləri ........ 9
Rr, Iı hərfləri ........ 10
Dd, Yy hərfləri ........ 11
Oo, Ss hərfləri ........ 12
Uu, Kk hərfləri ........ 13
Pp, Şş hərfləri ........ 14
Ee, Vv hərfləri ........ 15
Zz, Üü hərfləri ........ 16
Öö, Gg hərfləri ........ 17
Qq, Xx hərfləri ........ 18
Ğğ, Cc hərfləri ........ 19
Çç, Hh hərfləri ........ 20
Ff, Jj hərfləri ........ 21
İnsan adları ........ 22
Heyvan adları ........ 23
Ölkə, şəhər ........ 24
Nöqtə ........ 25
Vergül ........ 26
Sual ........ 27
Nida ........ 28
K hərfinin tələffüzü ........ 29
Səs, hərf ........ 30
Söz, cümlə ........ 31

## II fəsil

Əlifba ........ 32
Əlifba ........ 34
Şəkilli kitab ........ 36
Bulaq ........ 38
Göy qurşağı ........ 40
Vətən torpağı ........ 42
Ümumiləşdirici tapşırıqlar ........ 44
Təmizlik ........ 46
Payız ........ 48
Payız ........ 50
Fənər ........ 52
Quşları incitməyin! ........ 54
Həkim məsləhəti ........ 56
Təhlükəsizlik ........ 58

Külək ........................................................ 60
Ən böyük arzu ............................................ 62
Ümumiləşdirici tapşırıqlar ......................... 64
Qışda ........................................................ 66
Qışda ........................................................ 68
Çoban ........................................................ 70
Çayçı ........................................................ 72
Tala ........................................................ 74
Arıçı ........................................................ 76
Ümumiləşdirici tapşırıqlar ......................... 78
Hərfli köynək ............................................ 80
Kəpənək ........................................................ 82
Pambıq ........................................................ 84
Qatar ........................................................ 86
Dovşan ........................................................ 88
Meyvələr ........................................................ 90
İdmançı ........................................................ 92
Ümumiləşdirici tapşırıqlar ......................... 94
Zooparkda ........................................................ 96
Qara qızıl ........................................................ 98
Qonaqlıq ........................................................ 100
Ümumiləşdirici tapşırıqlar ......................... 102

## Piktoqram

Danışın, deyin



Yazın, köçürün, altından xətt çəkin



Göstərin



# I FƏSİL

**1** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[a]* səsi olan şəkilləri göstərin.











**2** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[n]* səsi olan şəkilləri göstərin.









**3** Oxuyun və köçürün.



Aa

Nn

na, an

ana

**1** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[ə]* səsi olan şəkilləri göstərin.








**2** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[t]* səsi olan şəkilləri göstərin.








**3** Oxuyun və köçürün.




Əə

Tt

ət, tə

Nanə, nənə, nanə, tən, ata, ənənə

**1** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[l]* səsi olan şəkilləri göstərin.








**2** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[m]* səsi olan şəkilləri göstərin.








**3** Oxuyun və köçürün.




Ll

Mm

la, al, lə, əl, ma, am, mə, əm

Lalə, nal, əla, lalə, mən, nəm

1 Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[i]* səsi olan şəkilləri göstərin.









2 Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[b]* səsi olan şəkilləri göstərin.











3 Oxuyun və köçürün.



I i

B b

mi, im, li, il, ni, in, ba, ab, bə, əb, bi, ib

mil, min, əmi, bal, bil, baba, balta

**1** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[r]* səsi olan şəkilləri göstərin.











**2** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[ı]* səsi olan şəkilləri göstərin.











**3** Oxuyun və köçürün.



Rr

Iı

ra, ar, rə, ər, ın, nı, ıl, lı, ıb, bı, ır, rı

Alı, tar, tər, nar, iri, altı, atlı, arı, alın

**1** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[d]* səsi olan şəkilləri göstərin.






**2** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[y]* səsi olan şəkilləri göstərin.






**3** Oxuyun və köçürün.

*Dd*

*Yy*

*da, ad, də, əd, di, id, ya, ay, yə, əy, yi*

*dil, dad, dən, yay, yar, lay, yad*

**1** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[o]* səsi olan şəkilləri göstərin.















**2** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[s]* səsi olan şəkilləri göstərin.











**3** Oxuyun və köçürün.





O o

S s

on, no, ol, lo, om, mo, sa, as, sə, əs, so, os

dan, bol, tor, yad, əsa, sər, sal, say

1 Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[u]* səsi olan şəkilləri göstərin.












2 Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[k']* səsi olan şəkilləri göstərin.*














3 Oxuyun və köçürün.



U u

K k

un, nu, ur, ru, ud, du, ka, ak, kə, ək, ko, ok

ulu, nur, yun, yurd, kol, kino, kart, kran

* *[k']* səsinin fərqli tələffüz edildiyinə diqqət yetirin.

1 Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[p]* səsi olan şəkilləri göstərin.









2 Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[ş]* səsi olan şəkilləri göstərin.









3 Oxuyun və köçürün.




*P p*

*Ş ş*

*pa, ap, pə, əp, pu, up, şa, aş, şə, əş, şu, uş*

*top, tap, piy, pul, Piri, şiş, şad, şam, Şuşa*

1 Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[e]* səsi olan şəkilləri göstərin.











2 Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[v]* səsi olan şəkilləri göstərin.











3 Oxuyun və köçürün.



E e

V v

en, ne, er, re, es, se, va, av, və, əv, vu, uv

elmi, yem, Elmar, val, Vətən, div, Validə

**1** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[z]* səsi olan şəkilləri göstərin.








**2** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[ü]* səsi olan şəkilləri göstərin.








**3** Oxuyun və köçürün.




Z z

Ü ü

za, az, zə, əz, zo, oz, zu, uz, ün, nü, üt, tü

zər, biz, duz, yaz, Zivər, ütü, tük, düz, Ülvi

1 Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[ö]* səsi olan şəkilləri göstərin.











2 Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[g]* səsi olan şəkilləri göstərin.











3 Oxuyun və köçürün.



Ö ö

G g

ön, nö, öt, tö, öm, mö, ga, ag, gə, əg, gi, ig

söz, kök, dörd, Ömər, gül, gün, gerb, Gülnar

**1** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[q]* səsi olan şəkilləri göstərin.









**2** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[x]* səsi olan şəkilləri göstərin.









**3** Oxuyun və köçürün.




*Q q*

*X x*

*qa, aq, qə, əq, qı, ıq, xa, ax, xo, ox, xe, ex*

*qız, qar, qoz, Qasım, xal, xor, xətt, Xəyalə*

**1** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[ğ]* səsi olan şəkilləri göstərin.











**2** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[c]* səsi olan şəkilləri göstərin.











**3** Oxuyun və köçürün.



Ğ ğ

C c

ğa, ağ, ğə, əğ, ğu, uğ, ca, ac, cə, əc, ci, ic

yağ, dağ, sağ, Ağdaş, güc, can, Cavid, Ceyran

1 Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[ç]* səsi olan şəkilləri göstərin.









2 Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[h]* səsi olan şəkilləri göstərin.









3 Oxuyun və köçürün.




*Ç ç*

*H h*

*ça, aç, çə, əç, çe, eç, ha, ah, hə, əh, ho, oh*

*çay, çox, Çingiz, heca, şahmat, hava, Həmid*

**1** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[f]* səsi olan şəkilləri göstərin.








**2** Şəkillərin adlarını deyin. Adlarının tərkibində *[j]* səsi olan şəkilləri göstərin.









**3** Oxuyun və köçürün.




*F f*

*J j*

*fa, af, fə, əf, fü, üf, ja, aj, jə, əj, ju, uj*

*fil, şərt, hərf, Fuad, jest, jilet, qaraj, Jalə*

# İNSAN ADLARI

## Bunları bilməliyik

İnsan adları hər zaman böyük hərflə yazılır.
***Nümunə:*** *Aysel, Fatimə, Elmir, Fərhad.*




**1** Aşağıdakı sözlərdən hansıları həmişə böyük hərflə yazılmalıdır?



alma, selcan, meyvə, seymur, rüfət, zərifə, stol, ayı, quzu, pişik, ananas

**2** İnsan adları olan cərgəni seçin.



**a)** Azərbaycan, Türkiyə, Almaniya;
**b)** Firuz, Aysel, Emil, Zivər;
**c)** Məstan, Toplan, Alabaş;
**d)** Bakı, İstanbul, Quba, İmişli.

**3** Qız və oğlan adlarını qruplaşdırın və yazın.



| | | | |
|---|---|---|---|
| Aylin | Vüqar | Arzu | Afət |
| Ömər | İradə | Azər | Aynur |
| Samir | Ramiz | Aydan | Rəşad |
| Bahar | Ceyran | İlyas | Salman |

# HEYVAN ADLARI

## Bunları bilməliyik

Heyvanlara verilən xüsusi adlar
həmişə böyük hərflə yazılır.
***Nümunə:*** *Toplan, Yumaq, Qırat, Bozat, Qaragöz.*




**1** Nöqtələrin yerinə uyğun gələn heyvan adlarını yazın.

1. Mənim pişiyimin adı ...............dır.
2. ............... təhlükə hiss edəndə hürdü.
3. ............... məni görən kimi kişnədi.
4. ............... inəyim hər gün bir vedrə süd verir.

***Məstan***
***Toplan***
***Bozat***
***Qaragöz***

**2** Hər heyvan üçün uyğun olan qidanı göstərin.










**3** Cümlələri köçürün. Heyvanlara verilən xüsusi adların altından xətt çəkin.

1. Toplan qaça-qaça yanıma gəldi.
2. Alabaş bərkdən hürdü.
3. Ala keçi dağa dırmaşır.
4. Məstan süd içir.

# ÖLKƏ, ŞƏHƏR

## Bunları bilməliyik

Ölkə, şəhər, rayon və kəndlərə verilən xüsusi adlar həmişə böyük hərflə yazılır.
***Nümunə:*** *Azərbaycan, Türkiyə, Bakı, Ağdam və s.*



**1** Oxuyun və nöqtələrin yerinə uyğun gələn şəhər adlarını seçin.





**1.** Xarıbülbül çiçəyi yalnız ...............da bitir.
**2.** ............... narı ilə tanınır.
**3.** Azərbaycanın paytaxtı ............... şəhəridir.
**4.** ............... öz alması ilə məşhurdur.

***Quba***
***Bakı***
***Göyçay***
***Şuşa***

**2** Hansı cərgədə yalnız şəhər adları verilmişdir?



**a)** Qusar, Alabaş, Gəncə;
**b)** Şəki, Şuşa, Xızı;
**c)** Gülnar, Məstan, Bakı;
**d)** Lənkəran, Arif, Beyləqan.

**3** Köçürün. Şəhər adlarının altından xətt çəkin.



### Azərbaycan

Astarada, Lənkəranda
Limonların rəngi sarı.
Süfrələrin bəzəyidir,
Göyçayımın qızıl narı.

***Xəlil Rza Ulutürk***



# NÖQTƏ

## Bunları bilməliyik

Hər hansı bir fikrin və ya məlumatın bitdiyini göstərərkən cümlənin sonunda ***nöqtə*** (.) işarəsi qoyulur.
***Nümunə:*** *Mən məktəbə getdim.*

**1** Nöqtə işarəsini göstərin.



+ A • =

**2** Aşağıdakı cümlələrin hansında nöqtə işarəsindən istifadə edilməlidir?



**a)** Məktəbə getmisənmi
**b)** Dərslərini necə oxuyursan
**c)** Sabah yazı yazacağam
**d)** Sən harada yaşayırsan

**3** Durğu işarələrindən istifadə edərək yazın.



**1.** Sevinc şəkli rəngləyir
**2.** Arif telefonla danışır
**3.** Ana gülləri sulayır
**4.** Nənə nağıl danışır

# VERGÜL

## Bunları bilməliyik

Cümlədə ard-arda sadalanan sözlərin arasında ***vergül*** (**,**) işarəsi qoyulur.
***Nümunə:*** *Mən mağazadan süd, qənd, yumurta aldım.*

**1** Vergül işarəsini göstərin.



x ❘ , ❘ – ❘ N

**2** Durğu işarələrindən düzgün istifadə edərək cümlələri oxuyun.



**1.** Elnarə çantasına karandaş  dəftər kitab yığdı
**2.** Anam bağçada lalə qızılgül yasəmən əkdi
**3.** Mən səhər yeməyində pendir yağ yumurta yedim
**4.** Səlim top maşın piramida aldı

**3** Durğu işarələrindən istifadə edərək yazın.



**1.** Rəsm dərsində kağız boya karandaşdan istifadə etdim
**2.** Atam bazardan kartof soğan kələm meyvə aldı
**3.** Evə gəldim kitab oxudum oyun oynadım yatdım
**4.** Nənəm toyuq cücə qaz və ördəklərə yem verdi

## Bunları bilməliyik

Sual bildirən cümlənin sonunda ***sual*** (?) işarəsi qoyulur.
***Nümunə:*** *Sən neçənci sinifdə oxuyursan?*

**1** Sual işarəsini göstərin.



\+ • ? U

**2** Cümlələri sual intonasiyası ilə oxuyun.



1. Sənin adın nədir?
2. Parka kiminlə getdin?
3. Futbol oynamağı sevirsən?
4. Yayda hara gedəcəksən?
5. Sənin dostun kimdir?



**3** Durğu işarələrindən istifadə edərək yazın.



1. Mən nənəmə süd pendir qatıq aldım
2. Rəsul hara gedir
3. Tətili harada keçirəcəksən
4. Hansı heyvanları sevirsən

# NİDA

## Bunları bilməliyik

Hiss, həyəcən bildirən cümlənin sonunda ***nida*** (**!**) isarəsi qoyulur.
***Nümunə:*** *Torpaqdan pay olmaz!*

**1** Nida işarəsini göstərin.



,    .    ?    !

**2** Cümlələri intonasiya ilə oxuyun.



1. Yaşasın Azərbaycan!
2. Qarabağ Azərbaycandır!
3. Yaşasın mərd oğullar!



**3** Durğu işarələrindən düzgün istifadə edərək yazın.



1. Qalx ayağa Azərbaycan
2. Vay vay bu nə sözdür danışırsan
3. Sinfi təmiz saxlayın
4. Süfrəni yığışdır

# K HƏRFİNİN TƏLƏFFÜZÜ

**1** Verilmiş sözlərdə *[k]* səsini düzgün tələffüz edərək oxuyun.



kitab karandaş kök

kvadrat kirpi dekabr

köynək karton klub

**2** Şəkillərin adlarını deyin. Sözləri cümlələrdə işlədin.











**3** Sxem üzrə sözlər düzəldib yazın.



Kə → nan
Kə → ma-lə

kar → ton
kar → tof

## Bunları bilməliyik

Sözlər səslərdən əmələ gəlir. Səsləri deyirik və eşidirik. Hərfləri yazırıq və görürük. Səslər [ ] içərisində göstərilir.
***Nümunə:*** *[ata]*, *[daş]*, *[dəftər]*.






**1** Aşağıdakı sözləri oxuyun. Sözlərin hər birində neçə səs və hərf olduğunu deyin.

alma, oyuncaq, gilas, qız, pişik, top, ağac, çiçək



**2** Şəkillərin adlarını deyin. Sözləri cümlələrdə işlədin.





**3** Köçürün. Sözləri fərqləndirən hərflərin altından xətt çəkin.

| | | | |
|---|---|---|---|
| dələ | tələ | qulaq | bulaq |
| yaz | yat | göz | köz |

# SÖZ, CÜMLƏ

## Bunları bilməliyik

Sözlər hərflərdən ibarətdir. ***Məsələn:*** *k-i-t-a-b.*
Cümlə sözlərdən ibarətdir. ***Məsələn:*** *Mən yazı yazıram.*
Cümlə bitmiş bir fikri bildirir. Cümlə böyük hərflə başlayır və sonunda nöqtə (.), sual (?), nida (!) işarəsi qoyulur.
***Nümunə:*** *Rafiq televizora baxır.*
*Saat neçədə gələcəksən?*
*Qarabağ Azərbaycandır!*

**1** Oxuyun. Hər sözdə neçə hərf var?



şagird · çörək · işıq · süd
bulaq · masa · şalvar · üzüm

**2** Oxuyun. Hər cümlədə neçə söz var?



1. Bakıda güclü külək əsdi.
2. Günəş çıxdı.
3. Zeynəb yemək yeyir.
4. Mən dərsə saat birdə getdim.

**3** Sözlərdən istifadə edərək cümlə qurub yazın.



1. pomidor, yedim, mən;
2. sildi, anam, stolu;
3. xala, Taleh, ütülədi, paltarı;
4. var, naxışlar, çoxlu, xalçada.

# II FƏSİL

## ƏLİFBA




Zəhra bacısından soruşdu:

– Bacı, əlifba nədir?

Bacısı dedi:

– Hərflərin müəyyən qayda ilə düzülüşü əlifba adlanır. Azərbaycan əlifbasında otuz iki hərf var. Azərbaycan dilində isə otuz dörd səs var.

**1** Suallara cavab verin.

- Əlifba nədir?
- Azərbaycan əlifbasında neçə hərf var?
- Azərbaycan dilində neçə səs var?




**2** Şəkildəki heyvanların adları hansı hərflərlə başlayır?



**3** Azərbaycan dilində hansı hərflərlə başlayan söz yoxdur?

a ı u n o

m ü z y ğ

**4** Verilmiş sözləri oxuyun. Eyni hərfin fərqli səsləndiyinə diqqət edin.

kə-ləm kar-tof ki-tab ka-ğız

ko-man-dir kir-pi ka-ran-daş

**5** Oxuyun və köçürün.

1. Azərbaycan, əlifba, hərf, səs;
2. Əlifba hərflərin qayda ilə düzülüşüdür.
3. Səsləri deyirik və eşidirik.

# ƏLİFBA




Əlifbanı öyrəndim,
Tanıyıram hərfləri.
Heç əlimdən qoymuram
Kitab, qələm, dəftəri.

* * *

İndi ana dilində
Oxuyuram, yazıram.
Kitablardan biliklər
Öyrənməyə hazıram.

***Yəhya Kərimov***

**1** Suallara cavab verin.



- Şeir necə adlanır?
- Şeirdə nədən bəhs olunur?
- Kitablardan nə öyrənirik?




**2** Şəkildəkilərin hansının adı şeirdə verilmişdir?












**3** Verilmiş hərflərdən sözlər düzəldin və yazın.



ə q l ə m

i a t b k

ə l b a i f

h f ə r

**4** Sözləri oxuyun.

| | | | | | |
|---|---|---|---|---|---|
| şagird | qələm | əlifba | hərf | məktəb | lövhə |
| kitab | müəllim | bilik | çanta | dəftər | xətkeş |

**5** Verilmiş şəkillərə uyğun olaraq sözü tamamlayın.

**qa**



Hansı hərfləri əlavə etdiniz?

**6** Nöqtələrin yerinə uyğun olan hərfi əlavə edib oxuyun.

| ə, o, r | r, a, ö | ş, e, ı |
|---|---|---|
| p..zan | ş..m | ma..ın |
| həy..t | hə..f | h..yva |
| ka..andaş | d..rd | bal..q |

**7** Oxuyun və köçürün.

1. bilik, savad, dərs, elm, məktəb, müəllim, şagird;
2. Kitab bilik mənbəyidir. Kitab bizim dostumuzdur.
3. Biz məktəbliyik. Mən məktəbi sevirəm.

# ŞƏKİLLİ KİTAB






Ramil anasından kitab istədi. Anası ona şəkilli kitab aldı. O, çox sevindi. Kitabda maraqlı şəkillər var idi.

Ramil anasına dedi:

– Ana, çox sağ ol!

1 Suallara cavab verin.



- Ramil anasından nə istədi?
- Ona kitabı kim aldı?
- Ramil nə üçün sevindi?
- O, anasına nə dedi?



**2** Mətnə əsasən, cümlələri tamamlayıb yazın.



1. Ramil anasından kitab ............... .
2. Anası ona şəkilli ............... aldı.
3. Kitabda maraqlı ............... var idi.
4. Ramil çox ............... .

**3** Hansı şəkillərin adının əvvəlində və sonunda eyni hərf var?













**4** Verilmiş hərflərlə başlayan sözlər yazın.



A Ü L İ F O T N Q Ə Ö M

**5** Oxuyun və köçürün.





1. kitab, şəkil, ana, Ramil, maraqlı, sevindi;
2. Ramil kitabı çox sevdi.
3. Şəkillər maraqlı idi.

# BULAQ




Aysel, Ləman və Kamil meşəyə getdilər. Ləman su içmək istədi. Kamil dostuna su axtarmağa başladı. O, yaxınlıqda bulaq gördü.

Kamil dedi:

– Ləman, gəl su iç.

Ləman bulaqdan sərin su içdi.

**1** Suallara cavab verin.



- Uşaqlar hara getmişdilər?
- Ləman nə istədi?
- Kamil yaxınlıqda nə tapdı?




## Unutmayın

***Bulaq*** – yeraltı suların təbii surətdə yer səthinə çıxmasıdır.



**2** Verilmiş sözlərdən hansılar mətnə aid deyil?

Ay-sel | al-ma | me-şə | bu-laq | də-niz

**3** Sözlər arasındakı uyğunluğu müəyyən edin və oxuyun.

| | |
|---|---|
| bulaq | yemək |
| dadlı | çay |
| yaxşı | suyu |
| şirin | dost |

**4** Verilmiş sözlərdən hansıları böyük hərflə yazılır?
Həmin sözləri yazın.

aysel | meşə | bakı | kamil | məktəb | ləman | məstan | bulaq | azərbaycan | alma

**5** Oxuyun və köçürün.

1. Ləman, Aysel, Kamil, meşə, bulaq, su;
2. Ləman su istədi.
3. Kamil bulaq tapdı.
4. Bulaq suyu sərin olur.

# GÖY QURŞAĞI



Yağışdan sonra Nərgiz atası ilə gölün kənarında gəzirdi. O, səmadakı göy qurşağını görüb, atasından soruşdu:

– Ata, o nədir?

Ata səmaya baxıb dedi:

– Günəş şüası su damcılarının içindən keçdikdə bu rənglər yaranır. Ona "göy qurşağı" deyirlər.

**1** Suallara cavab verin.



- Nərgiz atası ilə hara getmişdi?
- O, atasından nə soruşdu?
- Göy qurşağı nədir?




**2** Sözləri oxuyun.



| | | |
|---|---|---|
| | rəng | |
| günəş | təbiət | yaşıl |
| şüa | qırmızı | mavi |
| bulud | narıncı | göy |
| yağış | sarı | bənövşəyi |

**Unutmayın**

***Göy qurşağının*** 7 rəngi var: qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy, bənövşəyi.



**3** Şəkildə gördükləriniz haqqında danışın.





**4** Verilmiş hərflərlə başlayan sözlər yazın.



g ö y q u r ş a ğ ı

Hansı hərflərlə başlayan sözlər tapa bilmədiniz?

**5** Verilmiş hərflərdən istifadə edərək sözləri tamamlayın və yazın.








**6** Oxuyun və köçürün.





1. günəş, su, yağış, damla, şüa;
2. Göy qurşağı təbiət hadisəsidir.

# VƏTƏN TORPAĞI








Xəyaldan şirin,
Arzudan gözəl,
Canımdan əzəl
Vətən torpağı.

* * *

Anadan doğma,
Babadan əziz,
Biz heçik sənsiz,
Vətən torpağı.

***Bəxtiyar Vahabzadə***

**1** Suallara cavab verin.



- Şeirdə neçə misra var?
- Şeirin müəllifi kimdir?
- Şeirdə nədən bəhs olunur?




**2** Sözləri oxuyun.



| | | |
|---|---|---|
| vətən | torpaq | Bakı |
| Azərbaycan | doğma | əsgər |
| ana | qəhrəman | igid |

## Bunları bilməliyik

Səslər iki yerə bölünür
- **saitlər** → 9 sait səs var.
- **samitlər** → 25 samit səs var.

**3** Dövlət rəmzlərini adlandırın və göstərin.




**Azərbaycan Respublikasının Dövlət Himni**

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!
Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!
Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən, şanlı Vətən!
Azərbaycan, Azərbaycan!





**4** Fikirlərdən biri yanlışdır.



1. Hərflər dörd yerə bölünür.
2. Doqquz sait səs var.
3. İyirmi beş samit səs var.

**5** Şəkildə gördüklərinizi cümlədə işlədib yazın.









**6** Oxuyun və köçürün.




1. Azərbaycan, vətən, ana, torpaq, dövlət;
2. Azərbaycan mənim vətənimdir.
3. Bakı Azərbaycanın paytaxtıdır.

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Azərbaycan əlifbasının yazıldığı cədvəli göstərin.

| | | | | |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 6 | 7 | 8 | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 |

| | | | |
|---|---|---|---|
| Aa | Gg | Qq | Ss |
| Bb | Ğğ | Ll | Şş |
| Cc | Hh | Mm | Tt |
| Çç | Xx | Nn | Uu |
| Dd | Iı | Oo | Üü |
| Ee | İi | Öö | Vv |
| Əə | Jj | Pp | Yy |
| Ff | Kk | Rr | Zz |



**2** Şeri davam etdirin.

Əlifbanı öyrəndim,
Tanıyıram hərfləri.
Heç əlimdən qoymuram
Kitab, qələm, dəftəri.

**3** Fikirləri tamamlayın.

1. ............... deyirik və eşidirik.
2. ............... görürük və yazırıq.

**4** Uygunluğu müəyyən edin.

| | |
|---|---|
| Azərbaycan | kitab |
| bulaq | əlifbası |
| şəkilli | şüası |
| günəş | suyu |

(şəkilli → kitab)

**5** Verilmiş adlar hansı mətndəndir?

Zəhra
Nərgiz
Ləman
Ramil
Kamil

**6** Şəkillər haqqında danışın.







| | | | |
|---|---|---|---|
| Aa | Gg | Qq | Ss |
| Bb | Ğğ | Ll | Şş |
| Cc | Hh | Mm | Tt |
| Çç | Xx | Nn | Uu |
| Dd | Iı | Oo | Üü |
| Ee | İi | Öö | Vv |
| Əə | Jj | Pp | Yy |
| Ff | Kk | Rr | Zz |

**7** Verilmiş şəkil adlarının ikinci hərfləri ilə başlayan sözlər yazın.













Yazdığınız sözlər hansı səslərlə başlayır?

**8** Sözləri oxuyun.



| | | | |
|---|---|---|---|
| kələm | gilas | eyvan | əqrəb |
| inək | it | oraq | divan |
| ördək | ayı | uşaq | üzük |

**9** Oxuyun və köçürün.





1. əlifba, kitab, şəkil, bulaq, köynək, ata, qəşəng;
2. Göy qurşağında yeddi rəng var.
3. Mən yazmağı və oxumağı sevirəm.

# TƏMİZLİK



Təmizlik sağlamlığın əsas şərtlərindən biridir. Ona görə də hər səhər əl-üzünüzü yuyun, dişlərinizi fırçalayın. Saçınızı səliqəli darayın. Yeməkdən əvvəl və sonra əllərinizi yumağı unutmayın.

**1** Suallara cavab verin.



- Sağlam olmaq üçün nə etmək lazımdır?
- Dişlərinizi gündə neçə dəfə fırçalayırsınız?
- Yeməkdən əvvəl nə edirsiniz?



**2** Sözləri oxuyun. Mətnə aid olmayan sözləri göstərin.



| | | |
|---|---|---|
| təmizlik | günəş | yumaq |
| diş | saç | səhər |
| maşın | daramaq | əl-üz |

3 Saitlə başlayan sözləri seçib yazın.



| | | | | |
|---|---|---|---|---|
| fırça | araba | ulduz | sabun | ürək |
| dəsmal | ördək | daraq | işıq | həkim |
| əjdaha | odun | meyvə | eynək | saç |

4 Şəkillərin məzmununa uyğun cümlələr qurun.







Hansı doğrudur?

5 Şəkildəki əşyalardan necə istifadə olunur?












6 Oxuyun və köçürün.





1. Açıq havada çox olun.
2. Özünüzü soyuqdan qoruyun.
3. İdmanı sevin. Təmizliyə riayət edin.

# PAYIZ



Payızda hava soyumağa başlayır. Günəşin süaları yeri az isidir. Güclü küləklər əsir, tez-tez yağış yağır. Ağacların yarpaqları saralıb tökülür. Payızda köçəri quşlar uçub isti ölkələrə gedirlər.

**1** Suallara cavab verin.



- İlin neçə fəsli var?
- Payız fəslində hava necə olur?
- Payızda yarpaqların rəngi necə olur?




**2** Oxuyun.



| | | | |
|---|---|---|---|
| | p | | |
| y | a | y | |
| | y | a | z |
| q | ı | ş | |
| | z | | |

## Unutmayın

***Xəzəl*** – payız fəslində torpağın üstünə tökülən yarpaqlardır.



## Bunları bilməliyik

Saitlər tələffüz olunarkən hava axını ağız boşluğunda heç bir maneəyə rast gəlmir. (maneələr: dil, dişlər, dodaqlar və s.)

**a**, **ı**, **o**, **u**, **e**, **ə**, **i**, **ö**, **ü**.

**3** Fəsillərin adlarını tamamlayın və yazın.

| y | | z |
|---|---|---|

| y | | y |
|---|---|---|

| p | a | y | | z |
|---|---|---|---|---|

| q | | ş |
|---|---|---|

Hansı hərfləri əlavə etdiniz?

**4** Şəkillər haqqında danışın. Hansı şəkillər payız fəslinə aiddir?



**5** Oxuyun və köçürün.

1. soyuq, yağış, külək, xəzəl;
2. Payızda bol məhsul olur.
3. Payız ayları sentyabr, oktyabr, noyabrdır.

# PAYIZ



Sanki ağac üşüyür,
Küləyə boynun bükür.
Yarpağı bir-bir düşür
Payızın gəlişindən.

* * *

Bağ-bağçalar saralır,
Hava erkən qaralır.
Qaranquşlar köç edir
Payızın gəlişindən.

***Farizə Nəbiyeva***

1 Suallara cavab verin.



- Payız fəslinin əlamətləri hansılardır?
- Bu fəsildə quşlar niyə isti ölkələrə köç edir?



2 Hansı sözlər şeirdə yoxdur?



payız

tərəvəz

qaranquş

ağac

yaşıl

**Unutmayın**

Payızda ***köçəri*** quşlar uçub isti ölkələrə gedirlər.



## Bunları bilməliyik

Samitlər tələffüz olunarkən ağız boşluğunda maneələrə rast gəlir. (maneələr: dil, diş, dodaqlar)

**b, c, ç, d, f, g, ğ, h, x, j, k, q, l, m, n, p, r, s, ş, t, v, y, z.**

**3** Verilmiş samitlərdən istifadə edərək sözləri tamamlayıb köçürün.

**t d v p r y**

qar..ız   dəf..ər   do..şan   ki..pi   ul..uz   pa..ız

**4** Rənglərə əsasən uyğunluğu müəyyən edib cümlə qurun və yazın.

| | | | |
|---|---|---|---|
| **Payızda** → | yarpaqlar | yağış | olur |
| **Payızda** → | tez-tez | məhsul | tökülür |
| **Payızda** → | bol | saralıb | yağır |

**5** Verilmiş sözdəki hərflərdən yeni sözlər düzəldib yazın.

p a y ı z

***Nümunə:*** *pay, ay.*

**6** Oxuyun və köçürün.

1. payız, yarpaq, sarı, narıncı, çətir, külək, yağış;
2. Payızda tez-tez yağış yağır. Payızda təbiət qızılı rəngə boyanır.
3. Yağış yağanda çətirdən istifadə edirik.

# FƏNƏR



Axşam idi. Sərçə öz balası ilə yuvasında yatmağa hazırlaşırdı. Birdən hər tərəf işıqlandı. Bala sərçə dedi:

– Ana, bax, günəş çıxdı.

Ana sərçə gülümsəyərək balasına baxıb dedi:

– İndi ətrafı işıqlandıran günəş deyil, küçə fənəridir. Axşamlar və gecələr küçələri işıqlandırmaq üçün küçə fənərlərindən istifadə edirlər.

**1** Suallara cavab verin.






- Sərçələr harada idi?
- Bala sərçə anasına nə dedi?
- Küçəni işıqlandıran nə idi?

**2** Mətnə aid olmayan şəkli göstərin.











**Unutmayın**

***Fənər*** – gecələr ətrafı işıqlandıran cihazdır.



**3** Nöqtənin yerinə hansı samiti yazsaq, mətndəki sözlərdən biri yaranar?



|   |   | s |   |
|---|---|---|---|
|   |   | ə |   |
|   |   | r |   |
| k | ü | . | ə |
|   |   | ə |   |



**4** Oxun istiqaməti ilə cümləni tamamlayın və yazın.




**5** Samitlə başlayan sözləri seçib yazın.

fənər | alma | günəş | yuva

ay | sərçə | axşam | təəccüb | aydın

zaman | yatmaq | ördək | göz

**6** Oxuyun və köçürün.

1. yuva, axşam, sərçə, fənər;
2. Sərçə balası fənəri günəş sandı.
3. Fənər gecələr yolları işıqlandırır.

# QUŞLARI İNCİTMƏYİN!

Bir qış səhəri idi. Çöldə qar yağırdı. Otağın pəncərəsi açıq qalmışdı və quş uçub içəri girmişdi. Bunu görən Fərid quşu otaqdan çıxarmağa çalışdı. Fatimə otağa girəndə Fəridi görüb soruşdu:



– Fərid, sən burada nə edirsən?

– Quş pəncərədən içəri girib onu çıxarmağa çalışıram.

Fatimə dedi:

– Çöldə hava soyuqdur. Gəl atamızın quşlar üçün aldığı yuvanı qurub çöldən asaq ki, quş yuvada isinsin.

**1** Suallara cavab verin.



- Hansı fəsil idi?
- Fatimə qardaşına nə dedi?
- Uşaqlar nə etdilər?





**2** Oxuyun.



| | |
|---|---|
| sərçə | xoruz |
| qarğa | toyuq |
| leylək | ördək |
| durna | qaz |
| sığırçın | cücə |

**Unutmayın**

Heyvanlar da canlıdır və onların bizim qayğımıza ehtiyacı var!



**3** Samit səslə başlayıb, sait səslə bitən quş adlarını söyləyin.



**4** Aşağıdakı sözlərin son hərfini "ş" samiti ilə əvəz edib yazın.

d a ğ  b a ğ

q a r  q ı z

**5** Oxuyun, samitlə başlayan sözləri seçib yazın.

| | | | | |
|---|---|---|---|---|
| maral | ayı | corab | yuva | quş |
| qayğı | odun | banan | əlcək | cücə |
| sərçə | tülkü | papaq | dost | üzüm |

**6** Oxuyun və köçürün.

1. dost, quş, yem, yuva, sərçə;
2. Quşlara dən verin!
3. Canlıları incitməyin!

# HƏKİM MƏSLƏHƏTİ



Tural xəstələndi. Anası evə həkim çağırdı. Həkim Turalı müayinə etdikdən sonra ona məsləhətlər verdi:

– Tural, hər gün tez oyan, idmanla məşğul ol. Otağının havasını tez-tez dəyiş, gün rejiminə əməl et.

**1** Suallara cavab verin.



- Kim xəstələnmişdi?
- Həkimi kim çağırdı?
- Həkim Turala hansı məsləhətləri verdi?




**2** Uyğunluğu müəyyən edin və oxuyun.



| | |
|---|---|
| təmiz | həyat |
| sağlam | hava |
| səhər | tezdən |

## Unutmayın

Sağlamlığını qorumaq hər kəsin öz əlindədir.



3 Mətndə mavi rəngdə verilmiş sözləri cümlələrdə işlədin.



4 Peşə adlarının ilk hərfləri ilə başlayan sözlər deyin.





***Nümunə:*** *heyva, hörümçək, hind toyuğu.*

5 Şəkillərin adlarını yazın və saitlərin altından xətt çəkin.






6 Cümlələri oxuyun.



**Tural,**
- idmanla məşğul ol.
- otağının havasını dəyiş.
- gün rejiminə əməl et.

7 Oxuyun və köçürün.





1. soyuq, xəstə, hava, təmiz, həkim;
2. Əllərini tez-tez yu.
3. Sağlamlığına diqqət et.

# TƏHLÜKƏSİZLİK





Zəhra ilə Tahir yolun kənarında topla oynayırdılar. Top diyirlənib yola düşdü. Piri baba topu götürüb dedi:

– Uşaqlar, yolun kənarında topla oynamayın. Bu, çox təhlükəlidir.

**1** Suallara cavab verin.



- Zəhra və Tahir harada oynayırdılar?
- Top diyirlənib haraya düşdü?
- Piri baba nə dedi?




**2** Hansı şəkil mətnə aid deyil?









**3** Sözləri tamamlayıb yazın.

t..p

ba..a

Z..hra

u..aq

yo..

Tah..r

Pir..

## Unutmayın

Yol kənarında oyun oynamaq uşaqlar üçün ***təhlükəlidir***!



**4** Şəkil adlarının ilk hərflərindən hansı insan adı yaranır?







**5** Hansı sütunda nöqtələrin yerinə eyni hərf yazılmalıdır?

| | | |
|---|---|---|
| Z..hra | t..p | al..a |
| T..hir | y..l | ki..ab |
| P..ri | ç..x | qələ.. |

**6** Mətnə əsasən cümlələri tamamlayıb yazın.

1. Zəhra ilə Tahir ............... oynayırdılar.
2. Top diyirlənib ............... düşdü.
3. Piri baba ............... götürdü.

**7** Oxuyun və köçürün.

1. top, yol, uşaq, baba, çox;
2. Yolda topla oynamayın.
3. Oyun seçərkən diqqətli olun.

# KÜLƏK



Hava çox soyuq idi. Bayırda güclü külək əsirdi. Məstan pişik təəccüblə pəncərədən bayıra baxırdı. Bunu görən Kənan pəncərəyə yaxınlaşdı. Həyətdəki ağacların tərpəndiyini və yarpaqların töküldüyünü gördü. Anasını çağırıb ondan soruşdu:

– Ana, ağaclar niyə tərpənir? Yarpaqlara bax, havada uçuşurlar.

Anası dedi:

– Oğlum, artıq payız fəslidir. Payızda hava soyuq olur, güclü külək əsir, yarpaqlar saralıb küləyin təsirindən tökülməyə başlayır.

**1** Suallara cavab verin.



- Kənan həyətdə nə gördü?
- O, anasından nə soruşdu?
- Ana nə dedi?




**2** Sözləri oxuyun. Hansı söz mətnə aid deyil?



| | | | |
|---|---|---|---|
| külək | ilan | həyət | ev |
| Kənan | ana | don | soyuq |
| qız | ağac | gül | hava |
| qar | balaca | divan | yarpaq |

## Bunları bilməliyik

Bir və ya bir neçə hərf birləşərək ***heca*** əmələ gətirir.

a → n – **an** | a → t – **at**

**3** Verilmiş hərflərdən heca düzəldib yazın.

**a** **n** **d** **r** **t** **o** **u** **ü** **b** **ö** **ə**

**4** Şəkildə təsvir olunan təbiət hadisələri haqqında danışın.





**5** Hecaları göstərin və köçürün.

ət | 3 | ▲ | an | 2 | ot | 1 | ? | nə | ● | ən

**6** Verilmiş sözləri ayrı-ayrı cümlələrdə işlədib yazın.

hava | soyuq | külək | yağış | çətir

**7** Oxuyun və köçürün.

1. külək, ağac, Kənan, həyət;
2. Külək ağacları tərpədir.
3. Küləkli havada diqqətli olun.

# ƏN BÖYÜK ARZU



Lalə bizim məktəbin üçüncü sinfində oxuyur. O həm də musiqi məktəbində təhsil alır. Lalənin musiqiyə böyük həvəsi var. O, yarışlarda birinci yerə layiq görülür. Musiqiçi olmaq onun ən böyük arzusudur.

**1** Suallara cavab verin.






- Lalə neçənci sinifdə oxuyur?
- Onun ən böyük arzusu nədir?
- Lalə hansı musiqi alətində ifa edir?

**2** Şəkildəki musiqi alətlərinin adlarını deyin.





**3** Mətnə əsasən cümlələri tamamlayıb oxuyun və yazın.



**1.** Lalə yaxşı ............... .
**2.** O, musiqi ............... alır.
**3.** Lalənin ən böyük arzusu ............... olmaqdır.

## *Bunları bilməliyik*

Sözün asanlıqla bölünən hissəsinə ***heca*** deyilir.

al – ma      ki – tab

**4** Mətndə mavi rənglə verilmiş sözləri hecalara ayıraraq yazın.

**5** Sözləri oxuyun, hecalara ayıraraq yazın.

| | | | |
|---|---|---|---|
| musiqi | piano | böyük | yaxşı |
| məktəb | Lalə | olmaq | məşğul |

**6** Sözlərə "daş" hecası əlavə edərək köçürün.

yol..   sir..   vətən..   əmək..

**7** Verilmiş hecalardan sözlər düzəldib yazın.

| | | | | |
|---|---|---|---|---|
| po | lə | ləm | ki | qa |
| zan | La | qə | tab | pı |

**8** Oxuyun və köçürün.

**1.** Lalə, piano, musiqi, arzu;
**2.** Lalə arzusuna çatdı.
**3.** O, musiqiçi oldu.

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Şəkillərin adlarını deyin. Təmizlik üçün istifadə olunan əşyaların şəkillərini göstərin.




**2** Cümlələri tamamlayın və yazın.

**1.** Payızda ............... yağır.
**2.** Yarpaqlar saralıb ............... .
**3.** İlin ............... fəsli var.

**3** Fikirlərdən biri yanlışdır.

- "A" saitdir
- "Ə" samitdir.
- "Alma" sözü iki hecadan ibarətdir: *al-ma*.

**4** Saitləri göstərin.

A L U Ə Z Ş N E İ

ı T O M S Ö Y ü

**5** Sözləri oxuyun. Samitlə başlayan sözləri köçürün.

fənər iri

sərçə önlük taxta

səma küçə ordu

günəş ağac gəmi

**6** Suallara cavab verin.

- Quşlara necə qulluq edirsiniz?
- Həkimlər bizə hansı məsləhətləri verirlər?
- Hərəkətli oyunları oynayarkən nəyə diqqət etmək lazımdır?

**7** Hansı şəkil adlarının son hərfi ilə söz başlamır?



**8** Təsvir olunmuş şəkillər hansı mətnlərdəndir?
İstədiyiniz mətn haqqında danışın.



**9** "Azərbaycan" sözünün hansı hecalarını müstəqil söz kimi işlətmək olar?

**10** Verilmiş hecalardan sözlər düzəldib yazın.

ba lıq rək ey çı

çö buğ da qay nək

**11** Oxuyun və köçürün.

1. təmizlik, payız, sərçə, külək;
2. Quşları incitməyin.
3. Həkim məsləhəti. Mənim arzum.

# QIŞDA



– Uşaqlar, indi qış fəslidir. Qışda qar yağır, havalar soyuyur. Təbiət dincəlir, bəzi vəhşi heyvanlar qış yuxusuna gedir. İnsanlar isti paltar geyinirlər. Uşaqlar qışı çox sevirlər. Onlar qartopu oynayır, xizəklə şürüşür, qar adamı düzəldirlər.

**1** Suallara cavab verin.



- İlin fəsilləri hansılardır?
- Qış fəslində havalar necə olur?
- Uşaqlar nə üçün qış fəslini sevirlər?



**2** Sözləri oxuyun. Mətnə aid olanları yazın.



| | | |
|---|---|---|
| qış | hava | meşə |
| qar | külək | dağ |
| yağış | dəniz | şir |
| uşaq | paltar | insan |
| soyuq | hava | qartopu |

**Unutmayın**

Qışda bəzi heyvanlar qış yuxusuna gedir: ayı, kirpi, ilan və s.



## Bunları bilməliyik

Sözdə nə qədər sait varsa, o qədər də heca var.

q o — y u n | ə s — g ə r | m a — ş ı n

**3** Qış fəslində istifadə olunan geyimləri göstərin və adlarını deyin.

   

**4** Verilmiş sözləri hecalara ayıraraq köçürün.

| | | | | |
|---|---|---|---|---|
| qışda | soyuq | maral | külək | şaxta |
| ərik | qaşıq | palto | limon | dəniz |

**5** Hansı şəkillərin adı bir hecalıdır?

   

**6** Sözlərdəki hansı hecaların mənası var?

ki-tab | şam-dan | bay-raq

ka-ran-daş | qar-tal | şax-ta

**7** Oxuyun və köçürün.

1. qış, qar, soyuq, şaxta, hava;
2. Qışda hava soyuq olur.
3. Uşaqlar qışı çox sevirlər.

# QIŞDA



Ağ dona bürünür yer,
Ağ geyinir ağaclar.
Göydən yerə yağır nur,
Çox sevinir uşaqlar.

* * *

Həyat bizə gözəldi,
Dərdimiz-qəmimiz yox.
Bizə sevinc gətirir,
Qıştək həmdəmimiz yox.

***Farizə Nəbiyeva***

**1** Suallara cavab verin.



- Şeirdə neçə misra vardır?
- Şeirdə hansı fəsildən bəhs olunur?
- Uşaqlar nə üçün sevinir?



**2** Hansı sözlər şeirdə yoxdur?



ağ

payız

çətir

qış

uşaqlar

**3** Uygunluğu müəyyən edin.



| | |
|---|---|
| qar | hava |
| soyuq | yağır |
| isti | oynayır |
| uşaqlar | paltar |

4 Aşağıdakılardan hansı həm söz, həm də heca ola bilər?

can

acı

tar

daş

qə

5 Hansı şəkil şeirə aiddir?






6 Eyni hecanın təkrar olunmasından yaranan sözü göstərin.






7 Şəkillərin adlarını deyin.






Sözlərdə sonuncu hərf hansı oldu?

# ÇOBAN



Çobanlar sürünü yaylağa apardılar. Qoyun-quzu çəmənliyə yayıldı. Tələt dayı tütək çalır. Tütəyin səsi dərələrə, düzlərə yayılır. Qoyun-quzu mələşir. Elə bil, onlar da oxuyurlar.

**1** Suallara cavab verin.

- Çobanlar sürünü hara apardılar?
- Kim tütək çalırdı?
- Tütəyin səsi hara yayılırdı?




**2** Cümlələri tamamlayıb oxuyun.

1. Çobanlar sürünü .................. apardılar.
2. Qoyun-quzu ......................... yayıldı.
3. Tələt dayı ............... çalmağa başladı.

## Unutmayın

***Çoban*** – qoyun və keçi sürüsünü otaran adamdır.



## Bunları bilməliyik

Hərflərdən heca, hecalardan sözlər yaranır.

| *hərf* | *heca* | *söz* |
|---|---|---|
| a → n → a | a → na | ana |

**3** Hecalardan sözlər düzəldib yazın.



| | | | | |
|---|---|---|---|---|
| qo | tək | te | pə | fon |
| sü | yun | kə | le | dor |
| tü | rü | po → | mi → | nək |

**4** Sözləri oxların istiqamətində oxuyun.



kələk   kök   ənənə   Tələt   tut

**5** Hansı rəngin adında daha çox heca var?





**6** Oxuyun və köçürün.





1. çoban, sürü, qoyun, tütək;
2. Çoban tütək çalır.
3. Qoyunlar mələşir.

# ÇAYÇI



Lalənin xalası çay becərilən sahədə işləyir. O, Laləni sahəyə apardı. Çayçı qızlar yaşıl çay yarpağı yığırdılar. Səbətlər tez-tez dolur, boşalırdı. Lalə indi bildi ki, onun içdiyi ətirli çayı kimlər yetişdirirlər.

**1** Suallara cavab verin.



- Lalənin xalası harada işləyirdi?
- Çayçı qızlar nə yığırdılar?
- Çayçı qızlar çayı nəyə yığırdılar?



**2** Şəkillər haqqında danışın.








**3** Sözləri oxuyun.

| | | |
|---|---|---|
| çay | səbət | Lalə |
| yarpaq | ətirli | içmək |
| xala | çayçı | aparmaq |

**4** Ox istiqamətində sözləri oxuyun.

| | | | |
|---|---|---|---|
| sər → çə<br>ke → çə<br>ne → çə | çə → mən<br>çə → pər<br>çə → piş | u → ca<br>qo → ca<br>ba → ca | Ca → mal<br>Ca → bir<br>Ca → vid |

**5** "çı" hecasından istifadə edərək, yeni sözlər düzəldib yazın.



| q | a | p | ı | | |
|---|---|---|---|---|---|



| ç | a | y | | |
|---|---|---|---|---|



| y | a | z | ı | | |
|---|---|---|---|---|---|

**6** Şəkillərdə verilmiş peşələrin adlarını deyin.









**7** İki hecalı sözləri seçib yazın.

| | | | | |
|---|---|---|---|---|
| Lalə | çay | xala | yarpaq | yaşıl |
| yasəmən | nərgiz | piano | ətir | dağ |
| qar | kəlbətin | xiyar | yol | səbət |

**8** Oxuyun və köçürün.

1. çay, yarpaq, ətir, çayçı;
2. Çay kol bitkisidir.
3. Mən ətirli çayı xoşlayıram.

# TALA



Kamil və Ləman meşədə odun toplayırdılar. Onlar çox yoruldular. Kamil bir tala gördü. O, Ləmana dedi:

– Yaxınlıqda tala var, gəl orada oturub dincələk.

Ləman talanın nə olduğunu bilmirdi. Dostlar odun şələlərini götürüb, talaya yollandılar. Tala meşənin ortasında, çox da iri olmayan ağacsız, açıq sahədir. Dostlar talada oturub dincəldilər. Sonra odun şələlərini götürüb evə yollandılar. Ləman evdə nənəsinə və babasına tala haqqında məlumat verdi. Həmin gün onun üçün çox maraqlı keçmişdi.

**1** Suallara cavab verin.



- Uşaqlar hara getdilər?
- Dostlar meşədə nə yığırdılar?
- Ləman və Kamil harada oturub dincəldilər?




**2** Şəkilləri adlandırın. Mətnə aid olmayan şəkli göstərin.











**3** Sözləri oxuyun.

| | | | | |
|---|---|---|---|---|
| meşə | Kamil | ağac | böyük | yaxın |
| tala | Ləman | odun | geniş | gözəl |

**4** Nöqtələrin yerinə "mil" hecasını artırmaqla insan adları düzəldib yazın.

Ra..   Şa..   Ka..   E..

**5** Hansı sözlər hecalara düzgün ayrılmayıb?

t-ala   me-şə   od-un

Kam-il   L-əman   ge-niş   gö-zəl

**6** Hansı şəkillərin adında eyni sait işlənib?










**7** Oxuyun və köçürün.

1. odun, meşə, tala, Kamil, Ləman;
2. Uşaqlar sevindilər.
3. Onlar tala gördülər.

# ARIÇI



Könülün babası arı saxlayır. Könül babası ilə arılara baxmağa gedir. Arılar xüsusi yeşiklərdə saxlanılır. Bu yeşiklərə "pətək" deyilir. Baba arılara yaxşı qulluq edir. Ona görə də arılar bol məhsul verir.

**1** Suallara cavab verin.






- Kim arı saxlayır?
- Arılar harada saxlanılır?
- Arılar nə üçün bol məhsul verir?

**2** Şəkillərin adlarını deyin. Mətnə aid olmayan şəkli göstərin.











## Unutmayın

***Bal*** – insan orqanizmi üçün çox faydalıdır.



**3** Şəkillər arasındakı uyğunluğu müəyyən edin.









**4** Sözləri oxuyun. Saitlə başlayan sözləri yazın.

| | | | |
|---|---|---|---|
| arı | insan | dağ | karandaş |
| çanta | ilan | bal | baba |
| önlük | Könül | ocaq | uşaq |
| qida | eynək | ərik | üzük |

**5** "Arı" sözünün əvvəlinə aşağıdakı samitləri artırmaqla yeni sözlər yaradın.

d s b y q

**6** Rəqəmləri artan sıra ilə düzün və cümlələri oxuyun.

1 Könülün 4 idi 2 babası 3 arıçı

**7** Oxuyun və köçürün.

**1.** arı, bal, Könül, baba;
**2.** Arı xeyirli həşəratdır.
**3.** Arı çiçək nektarı ilə qidalanır.

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Fəsillər haqqında danışın.



**2** Şeri tamamlayın.

Ağ dona bürünür yer,
Ağ geyinir ağaclar.
Göydən yerə yağır nur,
Çox sevinir uşaqlar.

**3** Sözləri oxuyun.

| | | |
|---|---|---|
| qar | külək | yaz |
| yağış | isti | payız |
| qış | sərin | yay |
| soyuq | şaxta | duman |

**4** Sözlər arasındakı uyğunluğu müəyyən edin.

| | | | |
|---|---|---|---|
| qoyun | tütək | çay | ətirli |
| səsi | plantasiyası | sürüsü | çay |

**5** İki hecalı sözləri seçib yazın.



| | | | | |
|---|---|---|---|---|
| çoban | çayçı | telefon | bal | qar |
| tütək | Lalə | yaşıl | əlifba | tala |
| çayçılar | it | arı | çay | arıçı |

**6** Şəkillər haqqında məlumat verin.





**7** Sözləri ox istiqamətində oxuyun.



t, q, x → ala

b, m, ç → ala

ç, y, t → ay

p, l, s → ay

**8** Verilmiş sözlərdən istifadə edərək, cümlələri tamamlayıb yazın.



1. Qışda havalar ............... olur.
2. Mən ətirli ............... xoşlayıram.
3. Çobanlar sürünü ............... apardılar.
4. Bal ............... məhsuludur.
5. Uşaqlar ............... oturub dincəldilər.

***soyuq***
***yaylağa***
***çay***
***talada***
***qida***

**9** Oxuyun və köçürün.





1. qar, qış, çay, çoban, tala, arı;
2. tütək səsi, soyuq hava, ətirli çay;
3. keyfiyyətli bal, böyük tala.

# HƏRFLİ KÖYNƏK





Turalın ad günü idi. Dostları ona köynək hədiyyə etdi. Tural hədiyyəni çox bəyəndi, çünki köynəyin üzərində rəngli hərflər yazılmışdı.

**1** Suallara cavab verin.



- Kimin ad günü idi?
- Dostları Turala nə hədiyyə etdi?
- Tural hədiyyəni nə üçün bəyəndi?
- Köynəyin üstündə hansı hərflər yazılmışdı?



**2** Sözləri oxuyun.



| | | |
|---|---|---|
| köynək | Tural | rəng |
| hədiyyə | hərf | qəşəng |
| sevinmək | | dost |

**3** Şəkil üzrə danışın. Nə üçün bu hərəkətləri etmək olmaz?





**4** Mətndə təsvir olunan köynəyi tapın və göstərin.






**5** Turalın köynəyindəki hərfləri tapın və göstərin.

i m A ü ı Z P o

ö j T N u ə e

**6** Saitlərlə başlayan sözləri tapın və köçürün.

| | | | | | |
|---|---|---|---|---|---|
| arı | tütək | inək | gəmi | eynək | ələk |
| maşın | ütü | qar | köynək | ölkə | ulduz |
| odun | nar | dəniz | çay | telefon | ürək |

**7** Oxuyun və köçürün.

1. hərf, sait, samit, səs, Tural, köynək, dost;
2. Tural köynəyi görüb sevindi.
3. Köynəyin üzərində hərflər yazılmışdı.

# KƏPƏNƏK



Sərçə bağçada sarı rəngdə kəpənək gördü. O, kəpənək tərəfə uçdu. Kəpənək özü rəngdə olan çiçəyin üstünə qondu. Sərçə çox axtardı, amma kəpənəyi tapa bilmədi.

**1** Suallara cavab verin.

- Sərçə kəpənəyi harada gördü?
- Kəpənək hansı rəng çiçəyin üzərinə qondu?
- Sərçə nə üçün kəpənəyi tapa bilmədi?




**2** Mətnə görə cümlələrin ardıcıllığını müəyyən edin.

- Sərçə kəpənəyi tapa bilmədi.
- O, kəpənək tərəfə uçdu.
- Sərçə bağçada uçurdu.
- Kəpənək özü rəngdə olan çiçəyə qondu.

**Unutmayın**

***Kəpənək*** – həşəratdır.



**3** Sözləri oxuyun. Samitlə başlayan sözləri köçürün.

| | | | | |
|---|---|---|---|---|
| kəpənək | çiçək | ağac | bağça | bostan |
| sərçə | gül | yarpaq | qırmızı | çəmən |
| arı | gözəl | ətir | həşərat | ulduz |

**4** Şəkillərin adlarını deyin. "Kə" hecası ilə başlayan varlıqları göstərin.




**5** Şəkildəkilərdən hansı quş deyil?



**6** Sözləri hecalara ayıraraq köçürün.

sərçə güllər çiçək

kəpənək bağça sarı ağac

günəş hava isti

**7** Oxuyun və köçürün.

1. sərçə, kəpənək, sarı, bağça;
2. Kəpənək sarı çiçəyə qondu.
3. Kətil – söykənəcəyi olmayan stuldur.

# PAMBIQ



Tutu atası ilə kəndə gedirdi. O, yolun kənarında pambıq sahəsini görüb atasından soruşdu:

– Ata, qar yağıb?

– Yox, qızım. Bura pambıq sahəsidir.

– Pambıqdan necə istifadə edirlər?

– Pambığın liflərindən hazırlanmış saplardan müxtəlif parçalar toxunur. Kiçik pambıq lifləri isə tibb sahəsində ən vacib vasitələrdən biridir.

**1** Suallara cavab verin.



- Tutu yolun kənarında nə gördü?
- Pambıqdan necə istifadə edirlər?



**2** Sözlər arasındakı uyğunluğu müəyyən edin.



| | | |
|---|---|---|
| pambıq | qatıq | köynək |
| süd | buğda | ayran |
| sünbül | lif | çörək |

## Bunları bilməliyik

Hecalara bölünmüş sözü sətirdən sətrə keçirmək olur:

*alma, pam–*
*bıq, ar–*
*mud, lalə*

**3** Sözləri hecalara ayıraraq köçürün.

| | | | |
|---|---|---|---|
| *kitab* | *taxıl* | *ət* | *çörək* |
| *qələm* | *məktəb* | *yağ* | *qənd* |
| *üzüm* | *lif* | *pambıq* | *şəkər* |

**4** Verilmiş hərflərlə başlayan sözlər yazın və onları hecalara ayırın.

p a m b ı q

**5** Şəkillər haqqında danışın.



**6** Oxuyun və köçürün.

1. pambıq, yağ, lif, tibb, çiyid;
2. Pambığa "ağ qızıl" da deyirlər.

# QATAR



Qatar gəlir uzaqdan,
Taq-taq, taq-taq, taq-taq, taq.
Gözləyirəm bayaqdan,
Taq-taq, taq-taq, taq-taq, taq.
Tələs-tələs, ay qatar,
Yel kimi əs, ay qatar.
Yol gəldim gündüz-gecə,
Taq-taq, taq-taq, taq-taq, taq.
Ürəyim vurur necə,
Taq-taq, taq-taq, taq-taq, taq.
Tələs-tələs, ay qatar,
Yel kimi əs, ay qatar.

***Zeynal Cabbarzadə***

**1** Suallara cavab verin.



- Hansı nəqliyyat növlərini tanıyırsınız?
- Qatar hansı nəqliyyat növünə aiddir?




**2** Şəkillərin adlarını deyin və onlar haqqında məlumat verin.











**3** Sözləri oxuyun.



| | | |
|---|---|---|
| qatar | gəmi | metro |
| yal | təyyarə | hava |
| maşın | qayıq | dəniz |

## 4 Şəkillər arasındakı uyğunluğu müəyyən edin.









## 5 Tərkibində "qa" hecası olan sözləri köçürün.

| | | | | |
|---|---|---|---|---|
| qatar | Qabil | armud | qarışqa | qutu |
| qanun | qartal | qaşıq | qılınc | qalib |
| qara | qaranquş | maşın | qapı | quzu |

## 6 Şəkillərin köməyi ilə yeni sözlər düzəldin və oxuyun.








## 7 Oxuyun və köçürün.

1. qatar, vağzal, gəzinti, vaqon;
2. Qatar dəmiryol nəqliyyatıdır.
3. Qatar relslərin üzəri ilə hərəkət edir.

# DOVŞAN



Dovşana bax, dovşana,
Qaçıb girdi yovşana.
Qışda qartək ağ idi,
İndi tükü boz olub.
Yoxsa torpaqda yatıb,
Üstü-başı toz olub?

***Əflatun Cəfərli***

**1** Suallara cavab verin.



- Dovşan qaçıb hara girdi?
- Yovşan nədir?



**2** Dovşan haqqında bu sözlərdən hansıları demək olar?




yumşaq | cəld | vəhşi | ürkək

sürünən | sevimli | ətyeyən | otyeyən

**3** Sözləri oxuyun. Mətnə aid olan sözləri yazın.




| | | | | |
|---|---|---|---|---|
| yazda | dovşana | qulağı | oyanıb | qumda |
| qışda | şirə | tükü | qaçıb | torpaqda |
| yayda | pişiyə | burnu | yatıb | suda |

**4** "Dovşan" sözündə işlənmiş samitlərlə başlayan sözlər deyin.



**Unutmayın**

***Yovşan*** – çöl bitkisidir.



**5** Şəkillərin köməyi ilə cümlə qurub yazın.





**6** Sözləri oxuyun. Saitlə başlayan sözləri yazın.

| | | | | | |
|---|---|---|---|---|---|
| dovşan | ördək | tülkü | araba | soğan | ulaq |
| qarpız | uşaq | kələm | üzük | eynək | ayı |
| ulduz | qazan | əlcək | odun | isti | çay |

**7** Şəkildə verilənlərin baş hərflərini birləşdirsək, hansı söz alınar?



**8** Hecalarının sayı eyni olan sözlər hansılardır? Qruplaşdırıb yazın.

| | | | | |
|---|---|---|---|---|
| torpaq | yasəmən | dovşan | qartal | tərəzi |
| bibər | tısbağa | canavar | tülkü | aslan |
| qarışqa | fil | qoyun | ayı | quş |

**9** Oxuyun və köçürün.

1. dovşan, boz, ağ, qaçmaq, torpaq;
2. Dovşan sevimli heyvandır.
3. Heyvanları qorumaq lazımdır.

# MEYVƏLƏR



Çiçək meyvə yeməyi xoşlayır. Dostu Eminə də meyvə yeməyi məsləhət görür. O, tez-tez dostuna deyir:

– Emin, meyvələr vitamin mənbəyidir. Bu vitaminlər sağlamlığımız üçün faydalıdır. Meyvələrin bədənimizə verdiyi vitaminlər sayəsində müxtəlif xəstəliklərdən qoruna bilirik. Daha sağlam bir bədənə sahib oluruq. Ona görə də bol meyvə yemək lazımdır.

**1** Suallara cavab verin.



- Çiçək nə xoşlayır?
- Çiçək nə üçün meyvə yeməyi xoşlayır?
- O, dostuna meyvələr haqqında nə dedi?



**2** Verilmiş sözlərdən istifadə edərək, cümlələri tamamlayın.



**1.** Bol meyvə və tərəvəz .......... lazımdır.
**2.** Meyvələri yeməzdən əvvəl əlləri .......... lazımdır.
**3.** Sağlam qidalanmaq .......... yaşamaq deməkdir.

***sağlam***
***yemək***
***yumaq***

**3** Sözləri oxuyun. Mətnə aid olan sözləri yazın.




| | | | | |
|---|---|---|---|---|
| su | ananas | portağal | banan | əncir |
| heyva | üzüm | gilas | alma | kivi |
| gavalı | nar | tut | qoz | armud |

**4** Verilmiş hecalardan meyvə və tərəvəz adları düzəldib yazın.



| | | | | | | |
|---|---|---|---|---|---|---|
| al | ça | ə | ü | kə | ğan | |
| ar | ma | kar | rik | xi | bər | bi |
| al | mud | tof | züm | so | ləm | yar |

**5** Hansı şəklin adında sözün əvvəlində işlənməyən hərf var?





ğ

ı

**6** Sözlər arasındakı uyğunluğu müəyyən edin.



| | |
|---|---|
| pendir, çörək, qənd | tərəvəz |
| xiyar, pomidor, soğan | ərzaq |
| alma, armud, ərik | meyvə |

**7** Oxuyun və köçürün.





1. meyvə, tərəvəz, qida, sağlam, vitamin;
2. Fuad meyvə yeməyi xoşlayır.
3. O, həmişə sağlam qidalanır.

# İDMANÇI



Ömər idmançıdır. O, idmanın güləş növü ilə məşğul olur. Yaşıdları arasında dünya birincisidir. Ömər Azərbaycan bayrağını yüksəklərə qaldırıb. O, qalib gələndə səslənən Azərbaycan himnini fəxrlə oxuyur.

**1** Suallara cavab verin.

- Ömər hansı idman növü ilə məşğul idi?
- Ömər nə ilə fəxr edirdi?
- Siz hansı idman növü ilə məşğul olursunuz?



**2** Şəkildə gördüyünüz idman növlərinin adlarını deyin.



**3** Sözləri oxuyun. Hansı sözlərdə saitlər təkrarlanır?

| | | | | |
|---|---|---|---|---|
| Ömər | dünya | güləş | igid | Azərbaycan |
| güclü | bayraq | qalib | idman | vətən |

## Bunları bilməliyik

Bir hərfdən ibarət olan hecanı sətirdən sətrə keçirmək olmaz:

*ana, ata, ailə*

*inək, ipək*

**4** Hecalara ayrılmayan sözləri köçürün.

| | | | | | |
|---|---|---|---|---|---|
| at | qatıq | söz | idman | hərf | |
| ana | yol | məktəb | dörd | adam | fəsil |
| boşqab | himn | bayraq | bərk | dünya | göz |

**5** Şeiri oxuyun.

### İdmançı

Ömər dedi: – Ay nənə,
İdmançı olacağam.
Vətənin bayrağını
Daim ucaldacağam.

***Tofiq Mahmud***



**6** "çı" hecasından istifadə edərək, yeni sözlər düzəldib yazın.

idman.. çay.. kitabxana..

qapı.. balıq..

**7** Oxuyun və köçürün.

1. Ömər, idman, güclü, güləş, himn;
2. İdman sağlamlıqdır.
3. Ömər idmanı sevir.

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** "Vətən" sözünün son samiti ilə başlayan beş adam adı yazın.

**2** Sözləri oxuyun.

| | | | | |
|---|---|---|---|---|
| kəpənək | pambıq | qatar | meyvə | idman |
| bağ | yol | vaqon | tərəvəz | güləş |
| sərçə | maşın | dayanacaq | soğan | qalib |

**3** Sözləri köçürün. Saitlərin altından xətt çəkin.

| | | | | |
|---|---|---|---|---|
| ərik | dövlət | bayraq | məktəb | qalib |
| sərçə | su | pambıq | məhsul | xiyar |
| heyva | ev | baş | təkər | ağac |
| tərəvəz | meyvə | bostan | bağ | ütü |

**4** Şəkillər hansı mətnlərə aiddir?









"Meyvələr" "Kəpənək" "Qatar" "İdmançı" "Dovşan" "Pambıq"

**5** Hansı şəkillərdəki heyvan adlarını sətirdən sətrə keçirmək olmaz?



**6** Hansı uşağın sözləri sətirdən sətrə düzgün keçirilməyib?



| | | |
|---|---|---|
| k-itab | id-man | mey-və |
| oğla-n | pam-bıq | bos-tan |
| s-u | qa-tar | a-ğac |

**7** Hansı sözlərdə təkrarlanan samitlər var? Həmin sözləri yazın.

| | | | | |
|---|---|---|---|---|
| qaşıq | tütək | çanta | lələk | köynək |
| meymun | ördək | qarışqa | bulud | çiçək |
| bağban | nənə | papaq | Tutu | qələm |

**8** Hansı şəklin adına bir sait artırsaq, heyvan adı yaranar?



**9** Oxuyun və köçürün.

**1.** pambıq, kəpənək, qatar, idmançı;
**2.** dovşan, meyvə, tərəvəz, bostan;
**3.** bağ, ağac, sərçə, heyvan.

# ZOOPARKDA



Leyla atası ilə zooparka getdi. Zooparkın ərazisi geniş idi. Orada saxlanılan heyvanlara xüsusi qulluq olunur. Leyla qəfəsdə saxlanılan meymuna banan vermək istədi. Atası Leylaya dedi:

– Qızım, burada saxlanılan bütün heyvanlara əlavə qida vermək qadağandır.

**1** Suallara cavab verin.






- Leyla atası ilə hara getmişdi?
- Leyla meymuna nə vermək istədi?
- Atası Leylaya nə dedi?

**2** Hansı şəklin adında sait və samitlərin sayı bərabərdir?





## Bunları bilməliyik

Qarşınıza çıxan *zoopark*, *saat*, *camaat*, *təbii*, *bədii* və s. sözlər ***qoşasaitli*** sözlərdir.

***Yazarkən:*** *saat*, tələffüz edərkən *[sa:t]*;
*maaş*, tələffüz edərkən *[ma:ş]*;
*zoopark*, tələffüz edərkən *[zo:park]*.

Bu sözlər eyni saitin təkrarı ilə yaranır.

**3** Sözləri oxuyun. Mətnə aid olmayan sözləri yazın.




| | | | | |
|---|---|---|---|---|
| heyvan | banan | ata | zoopark | geniş |
| meymun | alma | oğul | meşə | balaca |
| qələm | üzüm | Leyla | bağça | enli |

**4** Piktoqramların mənasını izah edin.








**5** Qoşasaitli sözləri köçürün.



maaş, tülkü, camaat, karandaş, zoopark
əmtəə, divan, saat, mənzərə, çanta
maşın, təbii, quş, bədii

**6** Oxuyun və köçürün.




1. zoopark, heyvan, quş, qəfəs, vəhşi;
2. Zooparkda gəzinti maraqlıdır.
3. Heyvanları incitmək olmaz.

# QARA QIZIL



Firəngizin qardaşı neftçidir. O, neft mədənində işləyir. Bir gün o, Firəngizi də mədənə apardı. Orada çoxlu neft buruqları var idi. Qardaşı dedi ki, nefti emal etmək üçün onu borularla zavoda axıdırlar. Zavodda ondan ağ neft, benzin, spirt, sürtkü yağları hazırlayırlar. Ona görə də neftə "qara qızıl" deyirlər.

**1** Suallara cavab verin.



- Firəngizin qardaşı hansı peşənin sahibidir?
- Neftə nə üçün "qara qızıl" deyirlər?
- Neftdən hansı məhsulları hazırlayırlar?



**2** Neftdən hazırlanan məhsulları göstərin və adlarını deyin.

























**3** Uyğunluğu müəyyən edin.



| | | |
|---|---|---|
| neft | plantasiya |  |
| çay | buruqları |  |
| pambıq | sahəsi |  |

**4** Nöqtələrin yerinə uyğun olan sözü əlavə edib yazın.



1. Neftdən .......... hazırlanır.
2. Neft mədənində .......... çalışır.
3. Mədəndə çoxlu .......... olur.
4. Neftə ".........." deyirlər.

***neftçilər***
***benzin***
***neft buruqları***
***qara qızıl***

**5** Sözlərdə buraxılmış hərfləri əlavə edib yazın.



sa..t  nef..  ma..ş  məd..n

bədi..  ben..in  zo..park  neftç..

bu..uq  təbi..  za..od  q..zıl

**6** Oxuyun və köçürün.



1. neft, mədən, buruq, zavod, neftçi;
2. Mədəndə neft quyuları olur.
3. Neft mədəndən borularla neftayırma zavodlarına axıdılır.

# QONAQLIQ



Yığışdı bizim evə
Dovşan, keçi, qaz, dəvə.
Qızıl xoruz çaldı saz,
Nəğmə oxudu Naznaz.

* * *

Gətirdim iki tava,
Şəkərbura, paxlava.
Yeyin, oyuncaqlarım,
Ay əziz qonaqlarım.

***Xanımana Əlibəyli***

**1** Suallara cavab verin.



- Qonaqlıqda hansı heyvanlar iştirak edirdi?
- Sazı çalan hansı quş idi?
- Sən qonaq getməyi xoşlayırsan?



**2** Şeirdə hansı heyvanların adları işlənməyib?





**3** Şeirdə mavi rəngdə verilmiş sözləri cümlədə işlədin.



***Nümunə:*** Keçinin balasına çəpiş deyirlər.

## Bunları bilməliyik

Qarşınıza çıxan *toqqa*, *səkkiz*, *rəqqas*, *ayaqqabı*, *çaqqal*, *vəziyyət* və s. kimi sözlər eyni samitin təkrarı ilə yaranan ***qoşasamitli*** sözlərdir.

***Yazarkən:*** *toqqa*, tələffüz edərkən *[tok'qa]*;

*doqquz*, tələffüz edərkən *[dok'quz]*.

**4** Əvvəlki sözün son hərfi ilə başlayan sözlər yazın.

inək → ______ → ______ → ______ → ərik

    

**5** Sözləri oxuyun. Qoşasamitli sözləri seçib yazın.

| | | | | | |
|---|---|---|---|---|---|
| səkkiz | vedrə | doqquz | addım | şəffaf | həzz |
| alma | qələm | göz | ayaq | adam | mütəkkə |
| hətta | yeddi | toqqa | əl | su | əlcək |

**6** Hansı rəqəmlərin adında qoşa samit var?

1 7 6 2 10 8 3 5 9

**7** Şeiri tamamlayıb köçürün.

Yığışdı bizim ..........
Dovşan, .......... , qaz, dəvə.
Qızıl xoruz .......... saz,
.......... oxudu Naznaz.

***çaldı***
***keçi***
***nağmə***
***evə***

**8** Oxuyun və köçürün.

**1.** qonaq, ev, xoruz, keçi, oyuncaq, saz;

**2.** Mən qonaq getməyi xoşlayıram.

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Şəkillər haqqında danışın.







**2** Şeirin davamını söyləyin.



Yığışdı bizim evə
Dovşan, keçi, qaz, dəvə.

**3** Sözləri oxuyun.



| | | | |
|---|---|---|---|
| zoopark | neft | qonaq | dəvə |
| heyvan | mədən | əziz | şəkərbura |
| qəfəs | quyu | oxumaq | dələ |
| meymun | buruq | yazmaq | paxlava |

**4** Hansı cümlədə bütün saitlər işlənib? Həmin cümləni köçürün.





1. Neftə "qara qızıl" deyirlər.
2. Elşənin gözü dostunu axtarırdı.
3. İki tava paxlava gətirdim.

**5** Hansı sözü tərsinə oxusaq, fərqli söz yaranar?



kələk kök mələk tut dad

**6** Sözləri oxuyun. Qoşasamitli sözləri seçib köçürün.

| | | | | |
|---|---|---|---|---|
| doqquz | tısbağa | səkkiz | səbət | hətta |
| mişar | toqqa | çaqqal | ayaqqabı | addım |
| raket | dağ | divar | Məhəmməd | nar |

**7** Hecalara düzgün ayrılmayan sözləri seçib köçürün.

| | | | | |
|---|---|---|---|---|
| q-onaq | sə-bət | futbo-l | dov-şan | q-aşıq |
| məkt-əb | bay-raq | ra-ket | b-anan | qar-pız |
| oğla-n | qar-tal | d-əvə | ki-tab | pəl-əng |

**8** Hansı sözün bir hecası məna ifadə edir?

karandaş

sünbül

bayraq

daraq

**9** Oxuyun və köçürün.

1. neft, mədən, buruq, quyu, zavod;
2. zoopark, qəfəs, heyvan, meymun;
3. qonaq, saz, dəvə, xoruz, keçi, dovşan.

**10** Hansı sözlər həmişə böyük hərflə yazılır?

Arzu  Sevinc  Orxan  Bakı

Şəfəq  Çiçək  Lalə

Ulduz  Tural  Ləman  Səma

**11** Mərkəzdəki hərfdən başlayaraq, sözləri oxuyun və yazın.




- A → nar, zər, raz
- A → li-də, ki-fə, za-də
- a → çar, lim, na
- a → san, təş, rı

**12** Oxuyun. Saitlə başlayan sözləri yazın.




| | | | | | | |
|---|---|---|---|---|---|---|
| kartof | pozan | oğlan | adam | ördək | eynək | qaş |
| gəmi | uşaq | siçan | kələm | dəmir | yağış | jaket |
| ərik | qatar | qayçı | ilan | raket | ələk | ütü |
| nənə | ürək | odun | taxıl | maşın | şar | əlcək |

**13** Şəkil adlarının ilk hərflərindən hansı söz yaranır?










BURAXILIŞ MƏLUMATI

*Xüsusi məktəblərin*
*3-cü sinifləri üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış*
*Azərbaycan dili fənni üzrə dərslik*
*I hissə*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Aygün Qasımova** |
| | **Farizə Nəbiyeva** |
| | **Yeganə Məmmədəliyeva** |
| | **Həbib Kərimov** |
| | **Könül Doxolova** |
| | **Süleyman Kərimov** |
| Layihə rəhbəri | **Rəhilə Soltanqızı** |
| Dizayner | **Cəmilə Məmmədova** |
| Texniki redaktor | **Ruslan Mahmudov** |
| Rəssam | **Anara Hüseynova** |
| Korrektor | **Kəklik Məmmədova** |

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi: 2023-016**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab nəşriyyat həcmi: 9.3. Fiziki çap vərəqi 13. Səhifə sayı 104.
Kəsimdən sonra ölçüsü: 220x275.
Kağız formatı 70x100 $^{1}/_{16}$. Ofset kağızı. Ofset çapı.
Şriftin adı və ölçüsü: Cambria, 14-18 pt.
Sifariş . Tiraj: . Pulsuz. Bakı - 2023

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: . .2023**

Çap məhsulunu hazırlayan:

**Çaşıoğlu Eİ MMC -** Bakı ş., M. Müşfiq küç., 2 A.

Çap məhsulunu istehsal edən: